# Azərbaycan müasir musiqisində Xədicə Zeynalovanın kamera əsərləri

**Qurbanova İlahə (BMA)**
**Fakultə : Musiqi tarixi və nəzəriyyəsi.**
**Ixtisas: musiqi tarixi**
**Kurs: II**
**Elmi rəhbər: BMA-nın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xatirə Həsənzadə.**

Azərbaycan müasir musiqisində Xədicə Zeynalovanın kamera əsərləri tədqiqat işimizdə üç fəsil daxilində araşdırılmışdır.

I fəsildə Azərbaycan kamera musiqisinin qısa olaraq yaranma və inkişaf mərhələlərinə nəzər salınmaqla bu müddət ərzində bəstələnən əsərlərin həmin tarixi inkişaf yolunda rolu qısa olaraq nəzərdən keçirilmişdir. Eyni zamanda, XX əsrin sonu XXI əsrin əvvəllərində bəstələnmiş və musiqi dili, ideya və məzmun, eləcə də forma etibarı ilə ənənəvi, qəlibləşmiş prinsiplərdən azad olan yeni estetik prinsipləri özündə cəmləyən kamera əsərləri nəzərdən keçirilməklə qısa şəkildə təhlilə cəlb edilmişdir.

II fəsildə Xədicə Zeynalovanın həyat və yaradıcılıq yoluna ətraflı şəkildə nəzər salmaqla onun bu illər ərzində, xüsusilə Almaniyada yaşadığı dövrdən etibarən bəstəkar, musiqişünas və təşkilatçı kimi fəaliyyətini işıqlandırmışıq. Həmçinin bu illər ərzində bəstəkarın qələmindən çıxan zəngin yaradıcılıq irsinə daxil olan, geniş dinləyici kütləsinin, eləcə də müxtəlif ansamblların, ifaçıların böyük marağına səbəb olan

və mötəbər festivallarda səslənən, bəstəkarın yaradıcılığında xüsusi çəkiyə malik olan əsərlər haqqında məlumatlar yer alır.

Yazı işinin sonuncu, III fəslində isə bəstəkarın yaradıcılığında xüsusi yeri olan neçə-neçə festival və konsertlərdə məhşur ansambların ifasında müxtəlif ölkələrdə səsləndirilmiş "Yanar dağ" və "Odlar diyarından şəkillər" adlı kamera əsərləri ətraflı təhlil olunub. Burada əsərlərin ideya məzmunu, forma və faktura prinsipləri, alətlərin ifasında istifadə edilmiş yeni ifa texnikaları və onların yaratdığı xüsusi səs tembrləri və effektləri haqda ətraflı təhlil aparılmışdır.